İPƏK YOLU, No.1, 2023, səh.67-72

# QEYRİ-NEFT İQTİSADİYYATININ İXRAC YÖNÜMLÜ İNKİŞAF MODELLƏRİ

**Nərmin Həsənova**

Gəncə Dövlət Universiteti, Gəncə, Azərbaycan
e-mail: narmin.hasanova.v@gmail.com

**Xülasə.** Məqalədə qeyri-neft iqtisadiyyatının ixrac yönümlü inkişaf modelləri araşdırılır. Göstərilir ki, idxalın ixracla əvəzlənməsi qeyri-neft iqtisadiyyatında genişmiqyaslı multiplikator effekti yaratmaqla, ayrı-ayrı sahələrin iqtisadi artımı və inkişaf imkanlarının müəyyənləşdirilməsi üçün əlverişli zəmin yaradır və idxalı əvəz etməyə əsaslanan ixrac yönümlü istehsalın təmin edilməsi daha müasir inkişaf modellərinin tətbiqini zərurətə çevirir.

**Açar sözlər:** ixrac modeli, iqtisadi artım, müqayisəli üstünlüklər, rəqabət, ixrac, idxal.

**EXPORT-ORIENTED DEVELOPMENT MODELS OF THE NON-OIL ECONOMY**

**Narmin Hasanova**
*Ganja State University, Ganja, Azerbaijan*

**Abstract** The article examines export-oriented development models of the non-oil economy. It is shown that the replacement of imports with exports creates a large-scale multiplier effect in the non-oil economy, creates a favorable ground for the economic growth and development opportunities of individual sectors, and the provision of export-oriented production based on the replacement of imports makes the application of more modern development models a necessity.
**Keywords**: export model, economic growth, comparative advantages, competition, export, import.

**ЭКСПОРТНО-ОРИЕНТИРОВАННЫЕ МОДЕЛИ РАЗВИТИЯ НЕ НЕФТЯНОЙ ЭКОНОМИКИ**

**Нармин Гасанова**
*Гянджинский Государственный Университет, Гянджа, Азербайджан*

**Резюме.** В статье рассматриваются экспорто-ориентированные модели развития ненефтяной экономики. Показано, что замещение импорта экспортом создает масштабный мультипликативный эффект в ненефтяной экономике, создает благо-приятную почву для экономического роста и возможностей развития отдельных отраслей, обеспечения экспорто-ориентированного производства на основе замещение импорта делает необходимым применение более современных моделей развития.
**Ключевые слова:** экспортная модель, экономический рост, сравнительные преимущества, конкуренция, экспорт, импорт.

## 1. Giriş

Hər bir dövlətin iqtisadiyyatının gücü, ilk növbədə onun tələbatını yerli istehsal hesabına ödəmə səviyyəsi və idxalın ixracla əvəzlənməsi potensialı ilə ölçülür. Bu baxımdan xarici iqtisadi əlaqələrin inkişafı nəinki iqtisadi təhlükəsizliyin təmin olunmasına, eyni zamanda daxili bazarın idxaldan asılılığının azaldılmasına və ya aradan qaldırılmasına gətirib çıxarır. Qloballaşma şəraitində xüsusilə qeyri-neft iqtisadiyyatının şaxələndirilməsi hesabına onun dünya bazarındakı konyunktura uyğunlaşdırılması ən vacib məsələlərdən hesab edilir. Qeyd edilənləri nəzərə almaqla, "qeyri-neft sektorunun inkişafını daha da sürətləndirmək üçün daxili

istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, qeyri-neft sektorunun ixrac imkanlarının artırılması" [1], həmçinin "qeyri-neft potensialının gücləndirilməsi, onun infrastrukturunun müasirləşdirilməsi və beynəlxalq standartlara uyğun rəqabətqabiliyyətli ixracat məhsulları istehsal etmək gücündə olan sənaye sektorunun yaradılması və inkişaf etdirilməsi" [2, s.4] hazırda dövlətin Azərbaycan Respublikasının iqtisadi siyasətinin prioritetləri kimi müəyyənləşdirilmişdir.

## 2. Qeyri-neft iqtisadiyyatının ixrac yönümlü inkişaf modelinin xüsusiyyətləri

Beynəlxalq təcrübə göstərir ki, ixrac vasitəsilə iqtisadi artım, son illər iqtisadi siyasətdə üstünlük təşkil edir ki, bu da dünya iqtisadiyyatlarının açıqlığı və qloballaşması ilə əlaqələndirilir. Sərbəst iqtisadiyyat şəraitində inkişaf etməkdə olan ölkələr subsidiyalaşdırılmış məhsullar ixracına üstünlük versələrdə, inkişaf etmiş ölkələr üçün belə strategiya ixraca əsaslanan iqtisadi model kimi qəbul edilir. Dünya iqtisadiyyatında qeyri-neft iqtisadiyyatının müasir inkişaf modeli, rəqabətqabiliyyətli və ixrac yönümlü istehsalın inkişafına əsaslanan geoiqtisadi model qəbul edilir. Qeyd etmək lazımdır ki, iqtisadi inkişafın ənənəvi ixracyönümlü modelində dünya iqtisadiyyatına inteqrasiya olunmuş sahələrin inkişafı, daxili tələblə əlaqələndirilir. Əminliklə demək olar ki, ixracyönümlü iqtisadi inkişaf modeli daxili bazarın tələbatının ödənilməsi şərti ilə beynəlxalq təchizat sisteminə inteqrasiya ilə şərtlənir.

Beləliklə, qeyri-neft iqtisadiyyatının ixrac yönümlü inkişaf modelini, ən effektiv iqtisadi modellərdən biri kimi qəbul etmək olar. Bu modelin əsasını investisiyaların istehsala cəlb edilməsinin stimullaşdırlması hesabına genişləndirilməsi, ixrac yönümlülük və insan kapitalından istifadənin sosial effektivliyə uyğunlaşdırlması təşkil edir [3, s.9]. İxrac yönümlü iqtisadi inkişaf modelininin xarakterik xüsusiyyətlərinə daxildir: qeyri-neft istehsalının ixrac yönümlü olması; ÜDM-də investisiyanın yüksək payı; iqtisadiyyatın inkişafında dövlətin fəal şəkildə iştirakı və tənzimləyici rolunun artması; xüsusi iqtisadi zonaların yaradılması; daha müasir idarəetmə metodları və s.

Dünya təcrübəsində, bir qayda olaraq, ölkələr ixrac potensialının və ixrac yönümlü istehsalın artması üçün əlverişli şəraitin yaradılması baxımından davaml olaraq müvafiq tədbirlər həyata keçirir. Təbii ki, ölkənin ixrac potensialını şərtləndirən ən mühüm amil müqayisəli üstünlüklərin olmasıdır. Əgər ilkin mərhələlərdə torpaq, əmək, kapital kimi istehsal amilləri ön plana çıxırdısa, hazırda ölkənin iqtisadi inkişafı üçün lazımi şərait yaratmaq, iqtisadiyyatın inkişafını stimullaşdırmaq qabiliyyəti həlledici rol oynayır. Digər müqayisəli üstünlük yüksək təhsil və təlim səviyyəsinə malik işçi qüvvəsidir. Araşdırmalar göstərir ki, bu müqayisəli üstünlükdən kifayət qədər səmərəli istifadə edilmir. Ona görə dünya ölkələrinin xarici iqtisadi fəaliyyətin tənzimlənməsi təcrübəsinin öyrənilməsi hazırda ən mühüm məsələlərdən hesab oluna bilər.

Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və subyektlərin xarici iqtisadi əlaqələrdə iştirakının əsasları əsasən hüquqi prinsiplərə əsaslanır. Bir sıra ölkələrdə müvafiq vergi güzəştləri tətbiq etməklə xarici investisiyaları cəlb etmək üçün əlavə stimullar yaradılır. Dövlətlərdən həmçinin ixracın maliyyələşdirilməsini asanlaşdırmaq tələb olunur. Bu məqsədlə müvafiq dövlət orqanları və özəl qurumlar vasitəsilə ixracın maliyyələşdirilməsinə köməklik göstərilir, subyektlərə ixracın inkişafı layihələri hazırlamaq hüququ verilir. Eyni zamanda, dövlət xarici ticarətin inkişafını təşviq edir və stimullaşdırır, xarici iqtisadi fəaliyyətin bilavasitə iştirakçılarına subsidiyalar verilir.

Qeyd etmək lazımdır ki, dövlət xarici ticarət əlaqələrinin bilavasitə iştirakçısı kimi çıxış edə və xarici tərəfdaşlarla münasibətlərini buna uyğun olaraq tənzimləyə bilər. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi əmtəə dövriyyəsi azadlığının təmin edilməsi kimi vacib məsələləri də həll edir. Ümumiyyətlə, dünya iqtisadiyyatının beynəlxalq əmək bölgüsündə iştirakının əsas istiqamətlərindən biri hazırda məhz ixracyönümlülükdür. Bu baxımdan bir çox ölkələr iqtisadi artımı təmin etmək üçün ixrac strukturunun yenidən qurulmasına çalışır [6, s.64]. Ölkələrin ixracyönümlü olub-olmamasını şərtləndirən amillər kimi bir sıra təkrar istehsal strukturları mövcuddur və burada əsas pay ixraca, xarici iqtisadi fəaliyyətin dövlət tənzimlənməsinə aiddir.

Beynəlxalq təcrübə göstərir ki, qeyri-neft sektorunda ixracyönümlü modelin effektivliyi ixrac ixtisaslaşma sahələrində dinamik dəyişikliklə təmin edilir, çünki ixracın yenilənməsi dünya bazarında öz mövqelərini və beynəlxalq əməkdaşlıq formalarının xarakterini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan qeyd etmək lazımdır ki, ixrac yönümlü qeyri-neft iqtisadiyyatının səmərəliliyi ölkənin rəqabət üstünlüklərinə əsaslanan məhsullar yaratmaqla əldə edilir. Rəqabət üstünlüyü nəzəriyyəsi iqtisadiyyat, onun sahələri və subyektləri arasındakı fərqləri önə çəkir. Belə şərtlər daxilində, ölkələrin iqtisadi sistemlərinin rəqabət üstünlükləri modellərində uyğunsuzluqlar olduğunu görmək mümkündür. Bu baxımdan, rəqabətqabiliyyətli iqtisadi model, iqtisadiyyatın inkişafının ixrac istiqamətini yeniləməyi tələb edir [7, s.9].

## 3. Azərbaycan Respublikasında qeyri - neft iqtisadiyyatının ixracyönümlü inkişaf modelinin mövcud vəziyyəti

Təbii ki, qeyd edilənlər öz nəticəsini milli iqtisadiyyatın inkişaf səviyyəsini bilavasitə özündə əks etdirən ümumi daxili məhsulda (ÜDM) biruzə verir. Araşdırmalara əsaslanaraq qeyd etmək olar ki, qeyri-neft bölməsində ixrac yönümlü istehsalın stimullaşdırılmasına yönəldilmiş bir sıra tədbirlər öz nəticələrini göstərməkdədir. Bu baxımdan "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamınının [1] əhəmiyyəti xüsusilə böyükdür. Təhlil göstərir ki, məhz belə tədbirlər son 5 ildə ÜDM-in artımına ciddi təsir etmişdir. Belə ki, hesablamalar 2017-ci illə müqayisədə 2021-ci ildə ÜDM-də 32% artım olduğunu deməyə əsas verir. Qeyri-neft sektoru üzrə ÜDM isə 26,7% artmışdır. Məhsula və idxala xalis vergilərdə müqayisə olunan dövrdə 56,9% artım qeydə alınmışdır (Cədvəl 1).

**Cədvəl 1**. İqtisadiyyatın qeyri-neft bölməsində ÜDM istehsalının dinamikası, cari qiymətlərlə, milyon manat [8]

| Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2017-ci ilə nisbətən 2021-ci ildə, %-lə |
|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul - cəmi | 70 337,8 | 80 092,0 | 81 896,2 | 72 578,1 | 92 857,7 | 132,0 |
| Qeyri-neft sektoru | 40 328,0 | 41 662,0 | 44 481,8 | 45 312,2 | 51 082,9 | 126,7 |
| Məhsula və idxala xalis vergilər | 5 004,4 | 6 198,3 | 7 362,5 | 6 848,4 | 7 844,2 | 156,9 |

İqtisadiyyatın qeyri-neft bölməsində ÜDM-in və ixracın artım sürətinin təhlili, 2020-ci il istisna olmaqla digər illərdə artım baş verdiyini təsdiqləyir. Belə ki, 2020-ci ildə əvvəlki illə müqayisədə ÜDM 4,9%, ixrac 2,9% azalmışdır. Qeyd etmək lazımdır ki, digər illər üzrə qeyri-neft bölməsində ixracın artım sürəti bütün illər üzrə ÜDM-in artım sürətini qabaqlamışdır. Belə ki, 2017-ci ildə ixracın artım sürəti 24,5%, 2018-ci ildə 11,6%, 2019-cu ildə 13,9%, 2021-ci ildə 38,4% olduğu halda, ÜDM üzrə bu göstərici müvafiq illərdə 2,8%, 2%, 4% və 7,1% təşkil etmişdir (şekil 1). Bu cür vəziyyət qeyri-neft bölməsi iqtisadiyyatında ixracın ÜDM-in tərkibindəki payının nə dərəcədə əhəmiyyətli olduğunu deməyə əsas verir və rəqabət üstünlüyünün formalaşmasındakı rolunu təsdiqləyir.




**Şəkil 1.** İqtisadiyyatın qeyri-neft bölməsində ÜDM-in və ixracın artım sürəti, əvvəlki ilə nisbətən %-lə [8]

Araşdırmalar göstərir ki, son illər qeyri-neft məhsulları ixracının coğrafiyası da genişlənməkdədir. Belə ki, 20212-ci ildə Azərbaycanın qeyri-neft məhsulları ixrac etdiyi ölkələrin ilk beşliyində Türkiyə ($333,7 milyon, 2020-ci illə müqayisədə 54,3% artım), Rusiya Federasiyası ($191,7 milyon, artım 1,7%), Gürcüstan ($61 milyon, artım 14%), İsveçrə ($51

milyon, azalma 25,2%), ABŞ ($39,4 milyon, artım 71,3%) qərarlaşmışdır. Ümumilikdə, qeyri-neft məhsullarının ixracının 34,6%-i Türkiyənin, 19,9%-i Rusiya Federasiyasının payına düşür. 2021-ci ildə dünya ölkələrinə $2,7 milyard dəyərində qeyri-neft məhsulları ixrac edilmişdir ki, bu da 2020-ci ilin göstəricisindən 47,2% çoxdur [9].

Qeyd etmək lazımdır ki, qeyri-neft iqtisadiyyatında məhsul istehsalında rəqabət üstünlüyü, həmçinin ərazi və coğrafi əsaslara görə, iqlim əlamətlərinə görə, təbii xüsusiyyətlərə görə yaradılır. Ona görə də ölkənin müəyyən ənənəvi amillərlə təmin olunması onun rəqabət üstünlüyünü tam şəkildə müəyyən etmir. Bunu istehsalın və xarici ticarətin yüksək artım templəri olan ölkələrin təcrübəsi də təsdiqləyir. Belə ki, ixrac yönümlülük modeli tətbiq edən ölkələrin spesifik xüsusiyyətlərindən asılı olmayaraq, onların fəaliyyətində əsaslı yeni tendensiyalar müşahidə olunur. Bu cür ölkələrin ixrac strategiyalarındakı tendensiyaların təhlili onların arasında aşağıdakı əsas mövqeləri ayırmağa imkan verir: iqtisadiyyatın tarazlığının və dinamikliyin yüksək templərinin təmin edilməsi; genişmiqyaslı ixrac strategiyasını tətbiq etmək bacarığı; iqtisadiyyatlın strukturundakı dəyişikliklərin həyata keçirilməsində kifayət qədər uğurlu nəticələr; əmək, enerji və material məsrəflərinin yüksək payı ilə səciyyələnən sahələrin artım templərinin stimullaşdırılması və ya dövlət tərəfindən tənzimlənməsi; yüksək texnologiyalı sahələrin inkişafının məqsədyönlü şəkildə istiqamətləndirilməsi; innovativ texnologiyaların cəlb edilməsi əsasında ənənəvi sahələrin yenidən qurulması, müasir avadanlıqlarla təchiz edilməsi və s.

Bütün bunlar, təbii olaraq təkcə bir dövlətin deyil, bütövlükdə dünya iqtisadiyyatının strukturunun modifikasiyasına zəmin yaradır [4, s.2291]. Çünki ölkələrinin dünya bazarlarına nüfuz etmə strategiyasında müəyyən bir bazarın tələblərinə sürətlə cavab verməyə yönəlmiş texnologiyaların aktiv şəkildə alınması, onların uyğunlaşdırılması və təkmilləşdirilməsi prosesində də müəyyən fərqləndirici xüsusiyyətlər müşahidə edilə bilər. Bunlar, dünya bazarına çıxmaq və ixracı artırmaq üçün başlıca vasitələr hesab edilir. Nəticədə ölkələr iqtisadi cəhətdən inkişaf etdikcə əmək tutumlu məhsulların ixracından daha çox, material tutumlu və yüksək texnologiyalı ixrac məhsullarının istehsalına keçirlər.

**Nəticə.** Qeyd edilənlərdən aydın olur ki, müasir şəraitdə müqayisəli üstünlüklərin əldə edilməsində ixracyönümlü modellərin effektivliyi danılmazdır. Ölkələrin ixrac potensialının formalaşması və inkişafı, ixracın üstünlük təşkil etməsini hədəfləyən iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi özünü göstərir. Eyni zamanda, ixrac potensialının müstəsna olaraq dövlət tənzimlənməsi, ərazi proporsiyalarının qeyri-bərabərliyini aradan qaldıra bilir. Beləliklə, hər hansı bir ölkənin iqtisadiyyatının rəqabət qabiliyyətinin inkişaf etdirilməsi modeli, yalnız müəyyən edilən üstünlüklər üzərində qurulmaqla xarici mühitin təsirinə uyğunlaşdırıldıqda uğurlu olur.

Araşdırmalar göstərir ki, iqtisadiyyatında rəqabətə mane olan bir sıra amillər də mövcuddur ki, belə vəziyyət məhsuldar iqtisadi fəaliyyət üçün stimulları azaldır və iqtisadi artıma mane olur. Bu baxımdan mülkiyyət hüquqlarının qorunması, rəqabət mühitinin təmin olunması uzunmüddətli iqtisadi artım üçün əsas şərtlərdir. Beləliklə, iqtisadiyyatın rəqabətli

modelə keçid yalnız mövcud institutların transformasiyasını deyil, həmçinin ixracın dəstəklənməsinin artırılması ilə mümkündür [5, s.137]. Elmi və innovativ fəaliyyətə əsaslanan insan kapitalından istifadənin effektivliyi də iqtisadi artımının əsas amili rolunda çıxış edir. Əslindı iqtisadiyyatda modernləşmə, insan kapitalının həcmi və dəyəri baxımından bütün digər kapital növlərinin yerdəyişməsini nəzərdə tutur. Deməli, qeyri-neft iqtisadiyyatında davamlı artımın təmin olunması, yüksək təhsilli insan kapitalına tələbatın ödənilməsini təmin edən ixrac yönümlü istehsalın inkişafı ilə mümkündür.

Beləliklə, idxalın ixracla əvəzləməsi strategiyası əsasında ixrac yönümlü məhsullar üçün kifayət qədər tutumlu bazar və bazar tələbi formalaşa bilər ki, onun ödənilməsi iqtisadi dinamikanın artmasına zəmin yaradar. Onu da nəzərə almaq lazımdır ki, idxalın əvəzlənməsi qeyri-neft iqtisadiyyatında geniş miqyaslı multiplikator effekti yarada bilir.

## Ədəbiyyat

1. Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı, 19 sentyabr 2018-ci il.
2. Abbasov İ.M., Əliyev T.N., Qeyri-neft sənayesinin iqtisadiyyatı, Dərslik, Bakı, “Elm və Təhsil”, 2017, 501s.
3. Идрисов Г., Мау В., Божечкова А., В поисках новой модели экономического роста, Вопросы экономики, 2017, 12, С.5-23.
4. Пыхтеев Ю.Н., Виноградова А.В., Воронина А.С., Проблема деиндустриализации в экспортно-сырьевой экономике, Фундаментальные исследования, 2014, 9, с.2288-2292.
5. Киршин И.А., Трансформация представлений о действиях механизма возрастающей отдачи в теории экономического роста, И.А. Киршин, Журнал экономической теории. 2008, 4, с.128-146.
6. Новая экономическая политика. Политика экономического роста, под ред. акад. Ивантера В.В., М.: ИНП РАН, 2013,54с.
7. Широв А.А., Логика перехода к новой модели экономического роста, Экономист, 2015, 9, с.5-12.
8. www.stat.gov.az
9. https://fed.az/az/iqtisadiyyat/azerbaycanin-rusiyaya-qeyri-neft-sektoru-uzre-ixraci-2-turkiyeye-54-artib-132791